**Simran Şöhran oğlu HACƏLİYEV**
Azərbaycan Turizm və Menecment Universiteti, Müəllim
Azərbaycan Turizm və Menecment Universiteti, Dissertant
E-mail: simranhajaliyev@gmail.com
ORCID ID: 0009-0002-3154-5014

# AZƏRBAYCANDA ETNİK MÜXTƏLİFLİK KONTEKSTİNDƏ İCMA ƏSASLI TURİZMİN İNKİŞAFI ÜÇÜN RESURSLAR VƏ PERSPEKTİVLƏR

**Xülasə**

Turizm və icma inkişafı bir-birinə sıx bağlı olduğu üçün icma əsaslı turizm yerli icmaların sosial-iqtisadi inkişafında əhəmiyyətli rol oynayır. İcma əsaslı turizm yerli icmaya yoxsulluğun azaldılması üçün alternativ gəlir mənbəyi təmin edən vasitə və yerli icma üçün bütün faydaları maksimum dərəcədə artırmağa imkan verən uzunmüddətli yanaşmadır. Azərbaycan zəngin mədəni irsə və təbii gözəlliklərə sahib bir ölkədir və bu, icma əsaslı turizm inkişafı üçün təkanverici amillərdən biridir. Ümumiyyətlə, icma əsaslı turizm davamlı turizm konsepsiyasının bir qolu olaraq turizmin inkişafına inqilabi yanaşma təqdim edir. Bu yanaşmanın əsas məqsədi yerli icmaları turizm fəaliyyətlərində passiv iştirakçılardan aktiv iştirakçılara çevirməkdir. Digər sözlə desək, icma əsaslı turizm yerli icmaların turizm resurslarını idarə etmək qabiliyyətini gücləndirməklə yanaşı onları bu prosesə cəlb edən icma inkişafı alətidir. Əlavə olaraq, icma əsaslı turizm yerli icmaya turizm sənayesindən gəlir əldə etməyə, yerli iqtisadiyyatı şaxələndirməyə, tarix və mədəniyyəti qorumağa, ətraf mühiti mühafizə etməyə və həmçinin maarifləndirmə və təhsil imkanları təmin etməyə kömək edir. Bu məqalə Azərbaycan üçün dayanıqlı və güclü icma əsaslı turizm təşəbbüslərinin inkişafına töhfə vermək üçün cari resursları tədqiq edərək inkişaf istiqamətləri təklif edəcəkdir. Araşdırma icmaların turizmdən daha çox fayda əldə etməsi üçün əsas yolları müəyyən edəcək və həm yerli icmalar, həm də turizm sektorunda çalışan maraqlı tərəflər üçün təkliflər verəcəkdir.

**Açar sözlər:** icma əsaslı turizm, yerli icmalar, davamlı turizm, sosial-iqtisadi inkişaf, Azərbaycan

**JEL:** Q13
**UOT**: 338
**DOI:** https://doi.org/ 10.54414/HHLP1657

## Giriş

İcma əsaslı turizm, qloballaşmanın sürətli inkişaf etdiyi bu dövrdə, icmaların turizm prosesinə sürətlə cəlb olunmasında, icma üzvlərinə turizm sənayesi ilə bağlı yeni bilik və bacarıqların aşılanmasında, yerli icmanın maariflənməsində, iqtisadiyyatın şaxələnməsində, sosial kapitalın artımından tutmuş təbiətin qorunmasına, yaşayış standartlarının yüksəlməsinə, sosial inteqrasiyanın artmasına qədər geniş spektrumdakı faydaları ilə iqtisadi bərabərsizliyin həllində mühüm rol oynayır [29]. Bu tədqiqat Azərbaycanın etnik müxtəlifliyə malik olan bölgələrində davamlı sosial-iqtisadi inkişafın katalizatoru kimi icam əsaslı turizmin aktuallığını işıqlandırmaq, icma əsaslı turizm təşəbbüslərinin həyata keçirilməsinin mümkünlüyünü araşdırmaq, icmaları turizm fəaliyyətlərində aktiv iştirakçıya çevirmək, yerli icmalar və turizm sektorunda maraqlı tərəflər üçün dəyərli fikirləri təmin etmək məqsədi daşıyır. Qədim İpək Yolu üzərində yerləşən ölkə, əsrlər boyu müxtəlif mədəniyyətlərin qovşağı olmuş, bir çox xalqların tarixinin və adət-ənənələrinin təsirinə məruz qalmışdır [27]. Azərbaycanda icma əsaslı turizm kənd ərazilərinə iqtisadi fayda gətirməklə yanaşı, ölkənin zəngin etnik müxtəlifliyini təbliğ etmək və onları ziyarətçilərə sistemli şəkildə təqdim etmək üçün mühüm rol oynayır. Bu turizm növü ölkənin unikal mədəniyyətini və adət-ənənələrini nümayiş etdirməyə, eyni zamanda Azərbaycanı orijinal və authentik təcrübələr istəyən turistlər üçün daha cəlbedici destinasiyaya çevirməyə kömək edir. Azərbaycanın Şərqlə Qərbin kəsişmə nöqtəsi kimi mövqeyi müxtəlif

etnik qrupların klasterlərini özündə birləşdirən çoxlu kənd və şəhərləri olan multikultural əhaliyə səbəb olmuşdur. Azərbaycanda ləzgilər, tatlar, talışlar, xınalıqlılar, avarlar, dağ yəhudiləri və digər kiçik etnik qrupların özünəməxsus mədəniyyətləri, dilləri və adət-ənənələri vardır və bu etnik müxtəliflik turizm təcrübələrinin daha unikal və diqqətçəkici üsullarla turistlərə təqdim etmək üçün böyük potensiala malikdir [3]. Yerli icmaları turizm prosesinə cəlb etməklə, bu turizm növünə mane olan problemləri aradan qaldırmaqla, mədəni orijinallığı və sosial kimliyi qoruyub saxlamaqla və məsuliyyətli turizm təcrübələrini təşviq etməklə, həmin yerli icmalar inkişaf etmiş iqtisadi artım, yaxşı yaşayış şəraitləri və turizmin sürətli diversifikasiyası ilə qarşılaşa bilər.

Bu mövzu ona görə aktualdır ki, Azərbaycan hökuməti regionlar arasında iqtisadi rəqabəti gücləndirməyə nail olmağa ciddi maraq göstərir və digər tərəfdən, icma əsaslı turizm Azərbaycanın 2023-2026-cı illərə dair Turizm Strategiyasında sadalanan 9 əsas istiqamətə daxil olan elementlərdən biridir [4]. Buna görə də, icma əsaslı turizmin geniş əhatəli strateji alət kimi tanınması, regionda icmaların öz resursları ilə turizm sahəsinin bir hissəsinə çevrilməsi, iş yerlərinin yaradılması, sahibkarlıq imkanlarının stimullaşdırılması, ən yaxşı təcrübələrdən istifadə edilərək bu turizm növünün sürətli inkişafına nail olmaq üçün müstəqil bir yanaşmanın təmin edilməsi Azərbaycanın turizm xəritəsində mərkəzi mövqe tutması üçün əhəmiyyətli addımlardır.

İcma əsaslı turizm yerli icmalara müsbət dəyişikliklər gətirmək potensialına malikdir, lakin onun uğuru bir neçə əlverişli şəraitdən və əsas maneələri aradan qaldırmaq qabiliyyətindən asılıdır. Müvəffəqiyyətli icma əsaslı turizm üçün əsas şərtlərdən biri yaxşı təşkil edilmiş və birləşmiş icmaya sahib olmaqdır. İcmalar birləşdikdə, qadınların, kişilərin və gənclərin qərar qəbul etmə proseslərində və maliyyə idarəçiliyində güclü iştirakı ilə icma əsaslı turizm inkişaf edə bilər. Əlavə olaraq, bu turizmin uğuru üçün "aşağıdan yuxarıya" (bottom-up)[1] yanaşması vacibdir. Bununla belə, icma əsaslı turizmin inkişafına bir neçə faktor mane ola bilər. Məsələn, icmaların zəif təşkilatlanması, qərarların bir neçə şəxsin əlində cəmlənməsi (adətən kişilərin əlində cəmlənməsi) və faydaların cəmiyyət arasında ədalətli şəkildə bölüşdürülməməsi icma əsaslı turizmin effektivliyini məhdudlaşdıra bilər. İcma əsalı turizmin yoxsulluğun tez bir zamanda aradan qaldırılması deyil, daha geniş icma inkişafı strategiyasının bir hissəsi kimi görülməsi vacibdir. Nəhayət, icma əsaslı turizmin uğur qazanması üçün həmçinin müvafiq infrastruktur və ziyarətçilərin yerli mədəniyyət və irsi anlamağa yönəlik təlimlər də önəmlidir [2].

## Metodologiya

Bu araşdırmada, Azərbaycanda icma əsaslı turizmin inkişaf perspektivlərini qiymətləndirmək üçün keyfiyyət metodlarından istifadə edilmişdir. İki əsas məlumat toplama texnikası tətbiq olunmuşdur:

1) Sahə Tədqiqatları: Azərbaycanın müxtəlif bölgələrində potensial icma əsaslı turizm fəaliyyətlərinin həyata keçirildiyi və ya həyata keçirilməsi mümkün olan ərazilər öyrənilmişdir.

2) Ədəbiyyat Araşdırmaları: Məlumatların toplanması tanınmış beynəlxalq qurumların nəşrləri, təşkilatların hesabatları və təcrübələri, mövzu ilə əlaqədar məqalə və jurnallar, eləcə də kitabxanada mövcud olan və internet axtarış sistemləri vasitəsilə əldə edilən elmi tədqiqatlardan istifadə etməklə aparılmışdır. İnkişaf etməkdə olan ölkələrdə turizm sənayesindəki vəziyyətin sürətlə dəyişə biləcəyini və tədqiqatların daim inkişaf etdiyini nəzərə alaraq, müəllif məqalələrin nəşr olunduğu ilə xüsusilə diqqət etmiş və köhnə nəşrləri seçməməyə üstünlük vermişdir.

## İcma Əsaslı Turizm Nədir?

İcma əsaslı turizm qlobal miqyasda dayanıqlı inkişaf üçün vacib vasitə kimi qəbul edilir və turizmin yerli icmaların rifahına və iqtisadi inkişafına birbaşa töhfə verməsini təmin edir. İcma əsaslı turizm, "üçlü balans xətti" (Triple Bottom Line)[2]

[1] Aşağıdan yuxarıya yanaşma planlamanın, qərarların qəbulunun və ya problemlərin həllinin idarəetmənin daha yüksək səviyyəsinə çatmamışdan əvvəl icmanın və ya maraqlı tərəflərin rəyini istifadə etməklə və yaxud destinasiyanın inkişafı üçün vizyon və planın yaradılmasında yerli icmaları cəlb etməklə həyata keçirilən strategiyadır.

[2] Triple Bottom Line (Üçlü Balans Xətti) üç P-nin ətrafında cəmlənmiş davamlılıq çərçivəsidir: İnsanlar (people), Planet (planet) və Mənfəət (profit). O, sosial

anlayışını əldə etməyə qadir olan turizm modelidir. Slaper və Hall qeyd edirlər ki, üçlü balans xətti, həmçinin dayanıqlı inkişaf məqsədlərinə çatmaq üçün vacib vasitədir. Mahiyyətcə, icma əsaslı turizm təkcə turizm fəaliyyəti deyil, həm də qlobal turizm tələbi ilə yerli dayanıqlılıq prinsipləri arasında körpü qurmağa çalışan transformativ bir prosesdir [20]. İcma əsaslı turizm ənənəvi turizm modellərinə və yaxud yerli icmaları istismar edən dominant turizm paradiqmalarına meydan oxuyaraq, cəmiyyətlərə öz resurslarını idarə etmək və mədəni assimilyasiyadan qorunmaq imkanı verir. Bu yanaşma istehlakdan çox mədəni mübadilə üzərində dayanaraq, qlobal turizmdə dekolonial fəlsəfəyə uyğun gəlir [10]. İcma əsaslı turizm həmçinin holistik rifahın icma, ətraf mühit və ziyarətçilər arasında əlaqəli olduğunu nəzərə alan fəlsəfi çərçivələrə də uyğun gəlir [21; 23]. İcma əsaslı turizmə dair elmi ədəbiyyatda müxtəlif müəlliflər tərəfindən aparılan tədqiqatlar bu konsepsiyanın ətraf mühitin mühafizəsi, iqtisadi inkişaf və mədəni irsin qorunması baxımından yerli icmaların rolu və əhəmiyyətini vurğulayır. Aşağıdakı cədvəl, icma əsaslı turizmlə bağlı müxtəlif müəlliflərin yanaşmalarını və onların əsas fokuslarını müqayisəli şəkildə təqdim edir.

**Cədvəl 1**

**İcma Əsaslı Turizmlə bağlı yanaşmalar və əsas fokus istiqamətlərinin müqayisəsi**

| Müəllif (il) | Təsvir | Əsas Fokus | | |
|---|---|---|---|---|
| | | Ətraf mühit | İqtisadi | Mədəni |
| Murphy (1985) | İcma əsaslı turizm turizmin inkişafında yerli icmanın roluna diqqət yetirir və turizm resursları üzərində icmanın nəzarətinin və qərar qəbul etmə proseslərində iştirakının vacibliyini vurğulayır [14]. | | ✓ | |
| Lucchetti & Font (2016) | İcma əsaslı turizm yerli icmaların iştirakını əhatə edən və turistlərin icmaların mədəniyyəti və ətraf mühiti haqqında məlumat əldə etmələrini təmin edərək yerli icmalara fayda yaratmaq məqsədi güdür [11]. | ✓ | ✓ | ✓ |
| Beeton (2006) | İcma əsaslı turizm turizmin inkişafında icma iştirakını önə çəkir, mədəni irsin və kimliyin qorunmasını təmin edərək iqtisadiyyata fayda təmin etməyi hədəfləyir [6]. | | ✓ | ✓ |
| Tosun (2000) | İcma əsaslı turizm icmaların turizmin inkişafında, xüsusilə qərar qəbuletmə və fayda bölgüsü proseslərində iştirakını nəzərdə tutur və yoxsulluğu azaltmağa və sosial ədaləti artırmağa kömək edir [24]. | ✓ | ✓ | |
| Pongponrat & Pongquan (2007) | İcma əsaslı turizm, özünə güvənən icmalar yaradan, icmaları qərar qəbuletmə proseslərinə cəlb edən, onların hüquqlarını dəstəkləyən və həmçinin gəlirini və yaşam səviyyəsini yüksəldən bir turizm növüdür [16] | | ✓ | |

İcma əsaslı turizm dayanıqlı turizmin çoxşaxəli bir yanaşmasıdır və iqtisadi, sosial, ekoloji, mədəni və siyasi aspektlərdə əhəmiyyətli faydalar təmin edir. İqtisadi baxımdan, icma əsaslı turizm yerli əhalinin həyat şəraitini yaxşılaşdıraraq məşğulluq imkanlarını artırır, kiçik biznesləri dəstəkləyir və turizm gəlirlərinin ədalətli bölüşdürülməsini təmin edir [8]. Bundan əlavə, *Community-Based Tourism Handbook* qeyd edir ki, icma əsaslı turizm kənd yerlərində alternativ

rifah, ətraf mühitin mühafizəsi və iqtisadi artım arasında tarazlığın və uzunmüddətli uğurun təmin edilməsi vurğulayır.

gəlir mənbəyi təqdim etməklə ənənəvi kənd təsərrüfatı praktikasından asılılığı azaldır və iqtisadi həssaslığı minimuma endirir [22]. Sosial baxımdan, icma əsaslı turizm yerli əhalini turizmin planlaşdırılması və idarə olunması proseslərinə cəlb etməklə icma qürurunu və həmrəyliyini artırır. Bu aktiv iştirak yerli əhalinin səsini eşidilməsini təmin edir, icma birliyini möhkəmləndirir, mədəni kimliyi qoruyur və ev sahibləri ilə turistlər arasında mədəni mübadilə imkanları yaradır [19]. Ekoloji baxımdan isə, icma əsaslı turizm turizmi dayanıqlılıq prinsipləri ilə uyğunlaşdıraraq ekosistemlərin qorunmasını dəstəkləyir və həm yerli əhalini, həm də ziyarətçiləri təbiətin mühafizəsi barədə maarifləndirir [13]. Mədəni baxımdan, icma əsaslı turizm yerli ənənələri dəstəkləyərək, icmaların mədəni irsini turizm fəaliyyətlərinə inteqrasiya edir və orijinal mədəni təcrübələr yaradır. Bu yanaşma sənətkarlıq və mərasimlər kimi yerli adət-ənənələrin görünürlüyünü artırır və icmaların öz mədəni kimliklərinə bağlılığını gücləndirir [18]. Siyasi baxımdan, icma əsaslı turizm yerli icmaları gücləndirərək, onların turizmin idarə edilməsində fəal iştirakını təşviq edir. Bu yanaşma icma üzvlərinə qərar qəbuletmə proseslərinə təsir göstərməyə imkan verir, bununla da turizm faydalarının ədalətli bölüşdürülməsini və onların hüquqlarının qorunmasını təmin edir. Tədqiqatlar göstərir ki, uğurlu icma əsaslı turizm layihələri çox vaxt icmalar, yerli hökumətlər və digər maraqlı tərəflər arasında əməkdaşlığı tələb edir [9]. Aşağıdakı qrafikdə icma əsaslı turizmin iqtisadi, sosial, ekoloji, mədəni və siyasi aspektlərdəki əhəmiyyətli faydaları ətraflı şəkildə təsvir olunmuşdur.

**Qrafik 1**

**İcma Əsaslı Turizmin Əhəmiyyətli Faydaları**




**Azərbaycanda İcma Əsaslı Turizmin Cari Vəziyyəti və GZİT Təhlili**

Azərbaycanda icma əsaslı turizm son illərdə yüksələn bir trend olaraq, xüsusilə kənd yerlərində əhəmiyyətli bir inkişaf mərhələsinə qədəm qoymuşdur. İcma əsaslı turizmin əsas destinasiyaları əsasən Quba, Qusar, Şəki, Zaqatala, Astara və s. kimi bölgələrdə həyata keçirilir. Bu layihələr çərçivəsində yerli icmalar, qonaqlara kənd həyatını təbliğ edərək, təbii sərvətlərdən istifadə və mədəni irsə dair təcrübələr təqdim edirlər. Lakin, bu sahənin daha da inkişafı üçün infrastrukturun təkmilləşdirilməsi və effektiv marketinq strategiyalarının həyata keçirilməsi

zəruridir. Bu turizm növünün Azərbaycanda inkişaf perspektivləri çox böyükdür. Azərbaycanın kütləvi turizm bölgələrində yerli icmalar çox vaxt az iqtisadi fayda görürlər və bəzən özlərini turizm fəaliyyətlərindən kənarda qalmış kimi hiss edirlər. Bu, yerli əhalinin turizm ilə bağlı şikayətlərinə səbəb olur. İcma əsaslı turizm bu mövzuda yerli icmaları turizm fəaliyyətlərinə cəlb etməklə, onların iqtisadi faydaları bölüşmələri və dayanıqlı turizmə töhfə vermələri üçün həll yolları təklif edir [17].

Azərbaycanda bu gün 20-dən çox milli azlıq sülh şəraitində yaşayır ki, bu da ölkənin zəngin mədəni irsini əks etdirir. Bu qruplar arasında dağ yəhudilər, udinlər, ləzgilər, avarlar, tatlar, talışlar və s. var ki, onlar əsrlər boyu özünəməxsus mədəniyyət və adət-ənənələrini, o cümlədən dini ayinlərini, dillərini və dünyagörüşlərini uğurla qoruyub saxlamağı bacarmışlar [5]. Aşağıda Azərbaycanda icma əsaslı turizmin inkişafının etnik müxtəlifliyi konseptində inkişafı üçün mövcud resurslar ətrfalı şəkildə təqdim olunmuşdur:

**Dağ Yəhudiləri:** Əsasən Quba rayonunun Qırmızı Qəsəbəsində məskunlaşmışlar. Bu icma əsasən 1990-cı illərdə SSRİ dağıldıqdan sonra İsrailə köçmüşdür. Dağ Yəhudilərinin evlərində yəhudi simvolları, məsələn, menoralar müşahidə olunur və evlərin çoxu Qüds istiqamətində, cənub-qərbə baxır. Qırmızı Qəsəbə Gisori qəbiristanlığı, Qudyalçay üzərindəki tağlı körpü, Dağ Yəhudiləri Muzeyi, Albert Aqarunovun xatirə lövhəsi və memar Hillel ben-Hayyim tərəfindən layihələndirilmiş tarixi malikanələr kimi görməli yerləri ilə tarix və mədəniyyətin unikal qarışığını təqdim edir. Yerli sakinlər həm Pasxa ənənələrini qoruyur, həm də Ramazan və Qurban bayramı kimi müsəlman bayramlarında iştirak edirlər.

**Alman irsi:** Bu irsin əas mövcud olduğu destinasiya Göygöl şəhərinin “Alman məhəlləsi”dir.

Lüteran almanlar 1818-1941-ci illərdə Göygöl (keçmiş Helenendorf) və Şəmkir (keçmiş Annenfeld) şəhərlərində, eləcə də Çinarlı (keçmiş Qeorgsfeld), İrmaşlı (keçmiş Ayqenfeld), Həsənsu (keçmiş Aleksandrfeld), Vurğun (keçmiş Qrunfeld) və Tovuz (keçmiş Traubenfeld) kimi kəndlərdə məskunlaşıblar. Bu bölgələrdə xüsusi memarlığa malik evlər, ictimai binalar və hələ də davam edən şərabçılıq ənənəsi qalmaqdadır.

**Qafqaz Albaniyası (Udinlər):** Əsasən Qəbələ rayonunun Nic kəndində məskunlaşmışlar. Bu kənd dünyada ən böyük Udin əhalisinə malikdir. Udinlər e.ə. III əsrdən eramızın VIII əsrinə qədər indiki Azərbaycanın böyük bir hissəsində mövcud olan qədim Qafqaz Albaniyasının nəsilləridir. Səyahətçilər burada qədim kilsələri ziyarət edə, xaç suyu ayinlərini öyrənə və qədim Udin əlifbası ilə yazılmış qəbir daşlarını görə bilərlər.

**Ləzgilər:** Qusar rayonunda məskunlaşan ləzgilər qədim Qafqaz Albaniyası krallığını təşkil edən qəbilələrdən birinin, Legoislərin, nəsilləridir. Ləzgilər musiqi, rəqs və yeməkləri ilə fərqli mədəniyyətlərini qoruyub saxlayırlar.

**Avarlar:** Əsasən Zaqatala rayonunun Car kəndində məskunlaşmışlar. Avarların musiqi irsi tambur, zurna və nağara kimi alətlərdə ifa və Avar Ləzginkası rəqsini əhatə edir. Həmçinin burada kilim toxuma, yun corablar, mis qablar və yəhərlər kimi bir sıra ənənəvi sənətkarlıq növləri davam etməkdədir. Avarların mətbəxinə maxara, burcahal “əriştə”, sürhüllü, Avar xingalı, girs, hitgin, Avar hədik, gex, qabaq qutabı və Avar paxlavası daxildir.

**Qafqaz Albaniyası (Xınalıq):** Əsasən Quba rayonunun Xınalıq kəndində məskunlaşmışlar. Xınalıq, Böyük Qafqazın ən yüksək və ucqar məntəqələrindən biridir. Bu kəndin sakinləri Qafqaz Albaniyasının qədim qəbilələrindən birinin nəsilləridir və unikal “Ketş” dilində danışırlar. Ziyarətçilər burada çay içə bilər, yerli ailələrin evlərində gecələyə, tarixi məscidləri və qədim Zərdüştilik atəşgah məbədini görə bilərlər. Xınalıq kəndi və Köç Yolu 2023-cü ildə UNESCO-nun Dünya İrs Siyahısına daxil olmuşdur.

**Rus Molokanları:** Əsasən İsmayıllı rayonunun İvanovka kəndində məskunlaşmışlar. Bu kənd “kolxoz” kollektiv təsərrüfat formasını həyata keçirən son icmalardan biridir. Burada üzümçülük, taxılçılıq, maldarlıq, pendir, qaymaq və bal istehsal olunur. İvanovkada sakinlər orijinal taxta evlərdə yaşayır və evlər klassik üslubda oyma naxışlarla bəzədilmişdir.

**Talışlar:** Əsasən Azərbaycanın cənub düzənliklərində yaşayırlar və əksəriyyəti fermerliklə məşğuldur. Talışlar Novruz bayramını və yazın gəlişini folklor, adət-ənənələr və xüsusi

yeməklərin hazırlanması ilə qeyd edirlər. Onların məşhur sənətkarlıq növləri ipəkçilik, xalça və kilim toxuma, həmçinin şam ağacından həsirlər hazırlamaqdır. Talışların musiqi və rəqsləri də özünəməxsusdur və qadınların çoxu fərqli ənənəvi sırğalar taxır.

**Tatlar:** Əsasən Azərbaycanın şimal bölgələrində yaşayırlar. Azərbaycanın irandilli etnosları arasında mühüm yer tutan tatlar, zəngin mədəniyyəti və özünəməxsus kulinariya ənənələri ilə seçilirlər. Tat mətbəxi puşturuq, qurqut, şurə qaqal, sfan xalvo, sürqüt, quzqurap, dandur nuntarı, tərə pülə-pülə, ovnə dolma və oş kidki (balqabaqlı aş) kimi xüsusi yeməkləri ilə tanınır. Tatlar ənənəvi olaraq əkinçilik, bağçılıq, tərəvəzçilik, heyvandarlıq və arıçılıqla məşğul olsalar da, misgərlik və xalçaçılıq sahəsində də böyük uğurlar qazanmışlar.

Azərbaycanın zəngin mədəniyyəti, təbii gözəllikləri və kənd təsərrüfatı potensialı icma əsaslı turizmin inkişafı üçün əlverişli şərait yaradır. Azərbaycanda icma əsaslı turizmin inkişafı üçün aşağıdakı 3 əsas aspektə diqqət yetirilməlidir:

1) İnfrastrukturun təkmilləşdirilməsi: Yolların və turizm obyektlərinin təkmilləşdirilməsi, turizm xidmətlərinin daha keyfiyyətli hala gətirilməsi.
2) Təhsil və təlim proqramları: Yerli icmaların turizm sahəsində təhsili, onların turizm fəaliyyətlərinə hazırlıq səviyyəsinin artırılması.
3) Təbiət və mədəniyyətin qorunması: Ekoturizmin təşviqi və mədəni irsin qorunması istiqamətində tədbirlərin görülməsi.

Azərbaycanın 2023-2026-cı illər üçün qəbul etdiyi Turizm Strategiyası, icma əsaslı turizmin inkişafını təşviq etmək üçün bir sıra məqsəd və tədbirlər müəyyən edir. Bu strategiya icma əsaslı turizmin təşviq edilməsi, ətraf mühitin qorunması, yerli icmaların sosial və iqtisadi rifahının yaxşılaşdırılması, yerli icmaların turizm sahəsində fəaliyyətlərini gücləndirmək və Azərbaycanın mədəni irsini dünyaya tanıtmaq məqsədini güdür [4].

Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi və Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı (BMTİP) kənd icmalarının turizmə daha çox cəlb olunması və bu sahədə onların rifahının artırılması məqsədilə bir neçə layihə həyata keçirmişdir. Bu layihələrdən biri, 2025-ci ilə qədər davam edəcək "Azərbaycanın Regionlarında Dayanıqlı Turizm İnkişafına Dəstək" layihəsidir. Bu layihə kənd yerlərində məskunlaşmış icmanın dayanıqlı turizm vasitəsilə daha yaxşı təhsil, bacarıq və iqtisadi imkanlarla təmin etməyə yönəlmişdir. Layihənin məqsədi bu cür yerli icmalara maliyyə və qeyri-maliyyə resursları təmin edərək onların həyat şəraitini yaxşılaşdırmaq, icma iştirakını gücləndirmək, kənd yerlərində turizm infrastrukturu və xidmətlərini yaxşılaşdırmaq, yerli icmaları maarifləndirmək və onların turizm inkişafına töhfə vermələrinə şərait yaratmaqdır [28].

## Digər Ölkələrdən İcma Əsaslı Turizm İstiqamətində Uğurlu "Case Studies"

İcma əsaslı turizmin əsas prinsipləri bir çox ölkələrdə uğurla tətbiq edilmişdir. Dünya Bankı və BMT-nin Dünya Turizm Təşkilatı kimi qurumlar icma əsaslı turizmi davamlı turizmin əsas alətlərindən biri kimi qəbul edir və onun qlobal səviyyədə yayılmasını təşviq edir. Məsələn, Tanzaniya, Nepal, və Ekvador kimi ölkələrdə icma əsaslı turizm layihələri yerli icmaların iqtisadi rifahını artırmış və eyni zamanda mədəni irsin qorunmasına kömək etmişdir. Bu ölkələrdə həyata keçirilən icma əsaslı turizm layihələri, yerli icmaların turizmdən gəlir əldə etməsi, ətraf mühitin qorunması və turizm fəaliyyətlərinin davamlı olmasını təmin etmək üçün uğurlu modellər təqdim etmişdir [26]. Aşağıda icma əsaslı turizm sahəsində uğur qazanmış bir neçə ölkənin həyata keçirdiyi layihələr haqqında qısa məlumat təqdim olunmuşdur:

**1. Butan:** Butanın "Village Tourism" təşəbbüsü kənd yerlərində icma əsaslı turizmin təşviqinə yönəlib. Proqram ziyarətçilərə ənənəvi Butan mədəniyyətini və həyat tərzini özündə əks etdirən kəndlərdə yerli ailələrlə qalmağa imkan verir. Ziyarətçilər əkinçilik, milli mətbəx və "Paro Tsechu" kimi yerli festivallarda iştirak edərək mədəni irsin qorunmasına və ucqar icmalara iqtisadi fayda təmin edilməsinə töhfə verirlər. Bu proqram çərçivəsində yerli icmalara öz mədəniyyətlərini, o cümlədən ənənəvi sənətkarlıqları, dini ritualları və əkinçilik texnikalarını turistlərlə bölüşmək üçün müəyyən təlim sessiyları verilir [25].

**Cədvəl 2**

**Azərbaycanda İcma Əsaslı Turizmin GZİT Təhlili**

| **Güclü** | **Zəif** |
|---|---|
| - Azərbaycanın Şərqi Avropa və Qərbi Asiya kəsişməsindəki coğrafi mövqeyi<br>- Dövlət Turizm Agentliyi və Azərbaycan Turizm Bürosunun turizm təşviq kampaniyaları və inkişaf proqramları<br>- UNESCO Mədəni İrs Siyahısına daxil olan 4 Maddi və 19 Qeyri-Maddi İrsi<br>- Yerli mətbəx və unikal qastronomiya<br>- Authentik xalq ənənələri, sənətkarlıq və musiqi irsi də daxil olmaqla zəngin mədəni irs<br>- Ərazisində təbiət/tarixi/müalicə-sağlamlıq əsaslı turizm məhsullarının mövcudluğu<br>- Turistlər və yerli əhali arasında interaktiv mədəniyyət mübadiləsi<br>- Qonaqpərvər cəmiyyət<br>- Kənd yerlərində turizmin inkişafına dövlət dəstəyi<br>- Müxtəlif etnik qrupların mövcudluğu turizm üçün mədəni zənginlik təmin edir<br>- İcma əsaslı turizm mərkəzli səyahətçilər üçün artan kənd gecələmə yerləri (qonaq evləri, "homestays")<br>- Dövlət proqramları kənd icmalarında yaşayan qadınları turizm fəaliyyətlərində iştirak etməyə təşviq edir<br>- Kənd əhalisi ipəkçilik, kəlağayı istehsalı, sənətkarlıq, dəmirçilik, təbii boyama, arıçılıq, xalçaçılıq, dulusçuluq, əkinçilik  və s. kimi ənənəvi məşğuliyyətləri qoruyub saxlamışdır | - Bəzi bölgələrdə turizm infrastrukturu hələ inkişaf etməyib və yeniliklərə ehtiyac var<br>- Yerli icmalar arasında qonaqpərvərlik, turizm və idarəetmə üzrə təlimlər yetərsizdir<br>- Yerli icmalarda turizmin idarə edilməsinə dair peşəkar bacarıqların olmaması<br>- İcma əsaslı turizm modellərinin hələ ölkə daxilində adaptasiya edilməməsi<br>- İcma əsaslı turizmin inkişafı üçün lazım olan maliyyə dəstəyi və sərmayələr məhduddur<br>- İcma əsaslı turizm istiqamətləri haqqında məlumatlılığın az olması<br>- İcmaların əksəriyyətinin turizmə hazır vəziyyətdə olmaması<br>- İcma təşkilatlarında idarəetmə strukturları zəif olması<br>- İcmaların yerləşdiyi ərazilərdə turistik işarələnmənin və məlumat lövhələrinin olmaması və yaxud az olması<br>- İcmalarda infrastruktur və xidmətlərdə çatışmazlıq var (məsələn, içməli su, tullantıların idarə edilməsi, kanalizasiya, səhiyyə müəssisələri, ictimai iaşə)<br>- İcma liderliyi və birlik, icma turizminin inkişafı üçün zəruri ilkin şərtlər bir çox icmalarda yoxdur<br>- İngilis dili daha çox yayılsa da, dil maneələri hələ də turistlərlə yerli əhali arasında ünsiyyətə mane olur<br>- İcma əsaslı turizmin inkişafı üçün düzgün marketinq strategiyalarının olmaması, xüsusən də yerli turizm məhsullarının tanıdılmasında çətinliklər mövcuddur |
| **İmkanlar** | **Təhlükələr** |
| - Yerli icmaların iqtisadi inkişafı üçün dövlət və beynəlxalq təşkilatların dəstəyi artması<br>- Yerli sənətkarlıq və əl işlərinin daha geniş bazarlara təqdim edilməsi<br>- Ekoloji cəhətdən təmiz və sosial məsuliyyətli turizmə artan qlobal tələb<br>- Digər icmalar və təşkilatlarla birlikdə turizm layihələrinin həyata keçirilməsi<br>- Yerli icma potensialını artırmaq üçün təhsil və bacarıqlara əsaslanan proqramların təşkili<br>- İcma əsaslı turizm təkliflərini nümayiş etdirmək üçün beynəlxalq turizm yarmarkalarında iştirak və yaxud sosial media və onlayn platformalardan istifadə<br>- Yerli ağsaqqallardan və icma üzvlərindən istifadə edərək mifləri, əfsanələri və tarixi lətifələri tursitlərə çatdırmaq üçün "Storytelling" turları[3]<br>- Səyahətçiləri cəlb etmək və ənənələri, musiqini və sənətkarlığı nümayiş etdirmək üçün illik yerli festivalların təşkili | - İcmalarda artan turist sayı ilə təbii resursların təzyiq altına düşməsi<br>- Turizmin artma səbəbilə yerli mədəniyyətin eroziyası və kommersiyallaşması<br>- İqlim dəyişikliyi və ətraf mühitin deqradasiyası ilə kənd yerlərinə mənfi təsir<br>- Kənd yerlərində turizmin inkişafı və davamlılığı ilə bağlı aydın tənzimləmələrin  mövcud olmaması<br>- Bəzi bölgələrdə turizmdə mövsümilik mövcuddur və bu da icmalar üçün iqtisadi qeyri-sabitliyə səbəb ola bilər<br>- Sənayeləşmə və qloballaşma nəticəsində əl istehsalı ənənəvi sənətkarlıq məhsullarına tələbatın azalması da daxil olmaqla, yerli icma üzvlərinin ənənəvi sənətkarlığı davam etdirməyə marağının azalması<br>- Gənclərin daha yaxşı imkanlar üçün kəndlərdən şəhərlərə miqrasiyası<br>- Turizmin yerli icmanın müəyyən təbəqəsinə fayda verməsi səbəbilə icmada sosial gərginlik |

[3] Storytelling turları ziyarətçiləri bir yerin tarixi, mədəniyyəti, insanları və unikal hekayələri ilə tanıdan bələdçi təcrübələridir. Bu turlar, faktiki məlumatları hekayə yolu ilə yaddaqalan və təsirli şəkildə turistlərə çatdırır.

**2. Vyetnam:** Vyetnamın Sapa bölgəsində icma əsaslı ekoturizm təşəbbüsləri H'monq və Tay xalqı kimi etnik azlıq qruplarına turizm fəaliyyətlərində aktiv iştirak imkanı verir. Bu icmalar bələdçili turlar, trekkinq turları, ailə yanında qonaqlamalar və əl işləri, düyü əkilməsi və yemək bişirmə masterklasları kimi ənənəvi mədəni təcrübələr təklif edir [15].

**3. Uqanda:** Buhoma İcma Turist Gəzintisi Proqramı Bwindi Impenetrable Milli Parkına (BINP) gələnlər üçün əlavə turizm təcrübəsi təmin etmək məqsədi daşıyır. Təxminən üç saat davam edən gəzintiyə turistlərin mədəni tədbirlər keçirə və təbii attraksionlardan həzz ala biləcəyi evlərdə dayanacaqlar daxildir. Gəzintidən əldə edilən gəlir icma arasında bölüşdürülür, bələdçilər bir hissəsini alır və yerdə qalan vəsait yerli inkişaf layihələri üçün Buhoma Şurasına yönəldilir [1].

**4. Zimbabwe:** Zimbabvedə hal-hazırda mövcud olan Communal Areas Management Programme for Indigenous Resources (CAMPFIRE) Proqramı vəhşi təbiətin mühafizəsini kənd icmasının inkişafı ilə birləşdirən beynəlxalq səviyyədə tanınmış təşəbbüsdür. İcma üzvləri milli parklarla həmsərhəd olan kommunal torpaqlarda vəhşi təbiətin idarə edilməsində və mühafizəsində fəal iştirak edirlər. İcmalar ovçuluq, safari və eko-turizm kimi turizm fəaliyyətlərindən əldə edilən gəlirin bir hissəsini alır. Bu gəlir kommunal inkişaf layihələrinə, o cümlədən məktəblərin, səhiyyə müəssisələrinin və quyuların tikintisinə, yaşayış şəraitinin yaxşılaşdırılmasına yönəldilir. Bundan əlavə, icmalar bələdçi kimi çalışaraq turizm xidmətlərinə töhfə verir [12].

**5. Tayland:** Taylandın cənubundakı Hala-Bala Vəhşi Təbiət Qoruğunun yaxınlığında yerləşən Chulabhorn Pattana 9 İcması tərəfindən irəli sürülən təşəbbüs vəhşi təbiətin qorunmasına diqqət yetirir. Quş müşahidəsi turları ziyarətçilərin ornitoloqlar və yerli quş həvəskarları ilə sıx əməkdaşlıq etdiyi əsas fəaliyyətdir. İkincisi, Nong San İcması ənənəvi indiqo boyama sənəti turistlərə təqdim edir. Turistlər qədim boyama üsullarını öyrənmək və öz bədii dizaynlarını yaratmaq üçün vörkşoplara qoşulurlar. Bu proqram təkcə irsi qoruyub saxlamır, həm də yerli sənətkarları gəlir mənbəyi ilə təmin edir. Koh Phra Thong icması manqrov meşələrini və dəniz tısbağaları kimi nəsli kəsilməkdə olan növlərin qorunması üçün çalışır. Ziyarətçilər manqrovların əkilməsi və dəniz tısbağalarının monitorinqi kimi fəaliyyətlərdə iştirak edirlər [7].

## Təkliflər və Nəticə

Aparılan təhlillər göstərir ki, Azərbaycanın turizm potensialı geniş olsa da, mövcud resursların tam istifadəsi üçün daha effektiv və davamlı yanaşmalar tələb olunur. İcma əsaslı turizm modelinin Azərbaycanda uğurlu tətbiqi həm yerli icmaların iqtisadi rifahını artıracaq, həm də milli turizm sektoruna dayanıqlı inkişaf perspektivləri gətirəcəkdir. Bu istiqamətdə göstərilən təşəbbüslər Azərbaycanın müxtəlif bölgələrinin mədəni müxtəlifliyini ön plana çıxarmaqla, həm daxili, həm də beynəlxalq turistlərin diqqətini cəlb edəcəkdir.

İcma əsaslı turizmin inkişafı üçün üzvlük əsaslı assosiasiyaların yaradılması Azərbaycanda effektiv ola bilər. Çünki GZİT təhlilə nəzər yetirsək görərik ki, icma əsaslı turizmin inkişafındakı əsas problemlərə maliyyələşdirmənin idarə edilməsi, icma potensialının gücləndirilməsi, maraqlı tərəflərin iştirakının təmin edilməsi və digər sahələr daxildir. Bununla belə, İcma əsaslı turizm layihələrinin səmərəli idarə olunması üçün hər bir regionda Lokal Turizm İdarəetmə Komitələrinin yaradılması mümkündür. Bu komitələr yerli icmalarla sıx əlaqədə işləyərək turizm fəaliyyətlərinin koordinasiyasını həyata keçirməlidir. Komitələr həmçinin yerli resursların istifadəsi, mədəniyyətin qorunması və sosial-iqtisadi inkişaf üzrə strategiyaların hazırlanmasında önəmli rol oynayacaqdır.

İkinci mühüm istiqamət, yerli bacarıqların artırılması və təlim proqramlarının tətbiqidir. Yerli icmaların icma əsaslı turizm layihələrinə inteqrasiyası üçün geniş miqyaslı təlim proqramları hazırlanmalıdır. Bu təlimlər turizm idarəçiliyi, qonaqpərvərlik, mədəni irsin qorunması və xidmət keyfiyyəti kimi mövzuları əhatə etməlidir. Təlim proqramları həmçinin yerli icmaların turizmdən gəlir əldə etmə bacarıqlarını inkişaf etdirməyə yönəlik olmalıdır. Bu, bir tərəfdən icma üzvlərinin məşğulluğunu artıracaq, digər tərəfdən isə yüksək keyfiyyətli xidmətlər təklif etməklə turist məmnuniyyətini yüksəldəcəkdir.

İcma əsaslı turizmdə qadınların aktiv iştirakı, həm sosial, həm də iqtisadi inkişafın əsas amillərindən biridir. Kənd yerlərində yaşayan qadınların bu sahəyə cəlb olunmasını təmin etmək üçün xüsusi dəstək mexanizmlərinin yaradılması vacibdir. Məsələn, qadınların milli mətbəxin təqdimatı üzrə masterklaslarda iştirakı, həmçinin yerli əl işlərinin istehsalı və satışı ilə bağlı layihələr vasitəsilə onların turizm fəaliyyətlərinə inteqrasiyası həyata keçirilə bilər.

Bundan əlavə, dayanıqlı maliyyələşdirmə mexanizmlərinin qurulması vacibdir. İcma əsaslı turizm layihələri üçün dövlət dəstəyi, beynəlxalq donorların iştirakı və özəl sektorun investisiyası cəlb edilməlidir. Bu fondlar vasitəsilə icmaların ilkin ehtiyacları qarşılanaraq, onların öz layihələrini davamlı şəkildə idarəetmələri təmin edilə bilər. Həmçinin, müxtəlif maraqlı tərəflərin əməkdaşlığı üçün əlaqələndirici mexanizmlərin qurulması da vacibdir. Dövlət, qeyri-hökumət təşkilatları və özəl sektor arasında əlaqələrin gücləndirilməsi ilə icma əsaslı turizmin inkişafı üçün resursların effektiv bölgüsü təmin edilə bilər.

Digər bir tövsiyə isə rəqəmsal platformaların inkişafıdır. Yerli icmaların turizm potensialını tanıtmaq və turistləri cəlb etmək üçün xüsusi rəqəmsal platformalar yaradılmalıdır. Bu platformalar vasitəsilə kəndlərdə fəaliyyət göstərən turizm obyektləri, qonaq evləri, "homestays" və xidmətlər barədə məlumatlar asanlıqla əldə edilə bilər. Həmçinin icma əsaslı turizmin rəqəmsal xəritələşdirilməsi prosesi də həyata keçirilməlidir. Azərbaycanın turizm xəritəsinə yeni icma əsaslı turizm marşrutları əlavə edilməli və turistlər bu marşrutlarla bağlı məlumatları mobil tətbiqlər vasitəsilə əldə edə bilməlidirlər.

Azərbaycanda hər bir etnik qrupun unikal mədəni irsini və adət-ənənələrini əks etdirən mədəniyyət mərkəzlərinin yaradılması icma əsaslı turizmin inkişafında mühüm addım ola bilər. Bu mərkəzlərdə yerli mədəniyyətin müxtəlif elementləri, o cümlədən milli geyimlər, sənətkarlıq nümunələri, ənənəvi musiqi alətləri və milli mətbəxin kulinariya nümunələri nümayiş etdirilə bilər. Mədəniyyət mərkəzləri həm yerli sakinlərin, həm də turistlərin maraq dairəsini genişləndirərək, onları həmin icmanın gündəlik həyat tərzi ilə yaxından tanış etmək imkanı yaradacaqdır. Məsələn, Qusar, Zaqatala, Astara və ya Quba kimi bölgələrdə yaradılan bu cür mərkəzlərdə turistlər yalnız tamaşaçı kimi deyil, həm də fəal iştirakçı kimi çıxış edərək, xalça toxuma, dulusçuluq və ya milli yeməklərin hazırlanması kimi fəaliyyətlərdə iştirak edə bilərlər.

Etnik qrupların adət-ənənələrini əks etdirən illik festivalların təşkil edilməsi də digər vacib addımlardan biridir. Məsələn, musiqi, rəqs, geyim və kulinariya kimi sahələri əhatə edən festivallar turistlərə həm əyləncə, həm də maarifləndirici məzmun təqdim edə bilər. Bununla yanaşı, yerli dillər və folklorla bağlı dərnəklər təşkil edilərək, turistlərə milli nağıllar, dastanlar və mahnılarla tanışlıq imkanı yaratmaq olar. Etnik qrupların milli mətbəxini təqdim edən kulinariya turları da turistlərin yerli mətbəxi dərindən dərk etməsinə kömək edər. Bununla yanaşı, etnik qrupların özləri yerli tur bələdçiləri kimi fəaliyyət göstərə bilər, turistlərə bölgənin mədəniyyətini, tarixini və adət-ənənələrini izah edərək daha zəngin və unudulmaz təcrübə təqdim edə bilərlər.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Ahebwa WM, van der Duim VR. Conservation, livelihoods and tourism: A case study of the Buhoma-Mukono Community-based Tourism Project in Uganda. Wageningen University & Research Publications; 2013.

2. Asker S, Boronyak L, Carrard N, Paddon M. Effective community-based tourism: A best practice manual. Sustainable Tourism Cooperative Research Centre; 2010.

3. Azerbaijan Democratic Student & Youth Organization (ADSAYO). Azerbaijani model of multiculturalism. Milli Virtual Kitabxana. Available from: https://kitabxana.net/files/books/file/1415085509.pdf

4. Azerbaijan Tourism Board. Azerbaijan tourism strategy 2023-2026. 2023. Available from: https://tourismboard.az/strategy

5. Azerbaijan Tourism Board. Jewish heritage in Azerbaijan. Azerbaijan Tourism Board Publications; 2024.

6. Beeton S. Community development through tourism. 1st ed. New York: LandLinks Press; 2006.

7. Bendell B. Community Management of Seagrass Conservation Area of Phra Thong Island. Available from: http://www.mangrovesforthefuture.org/assets/Repository/Documents/MFF.12.08.pdf

8. de Abreu LA, Walkowski MC, Perinotto ARC. Community-based tourism and best practices with sustainable development goals. MDPI; 2024.

9. Dodds R, Ali A, Galaski K. Mobilizing knowledge: Determining key elements for success and pitfalls in developing community-based tourism. Current Issues in Tourism. 2018;21(13):1547-1568.

10. Higgins-Desbiolles F. More than an industry: The forgotten power of tourism as a social force. Tourism Management. 2006;27(6):1192-1208.

11. Lucchetti VG, Font X. Community-based tourism: Critical success factors. J Tourism Res. 2011;17(1):45-58.

12. Ministry of Tourism and Hospitality Industry (MOTHI). Community-based tourism in Zimbabwe: Guidelines for development. 2017.

13. Mtapuri O, Giampiccoli A. Towards a comprehensive model of community-based tourism development. South African Geographical Journal. 2014.

14. Murphy P. Tourism: A community approach (RLE Tourism). 1st ed. Routledge; 1985.

15. Nguyen TND. The role of local communities in community-based tourism development in traditional tea production areas in Thai Nguyen Province, Vietnam. University of Waikato; 2019.

16. Pongponrat K, Pongquan S. Community participation in a local tourism planning process: A case study of Nathon community on Samui Island, Thailand. Asia-Pacific Journal of Rural Development. 2007;17(2):27-46.

17. Salmanova A. Community-based tourism: Opportunities in the Republic of Azerbaijan. Culturology. 2020;228:1-10.

18. Scheyvens R. Exploring the tourism-poverty nexus. Curr Issues Tourism. 2007;10(2-3):231-254.

19. Sebele LS. Community-based tourism ventures, benefits, and challenges: Khama Rhino Sanctuary Trust, Botswana. Tourism Management. 2010.

20. Slaper TF, Hall TJ. The triple bottom line: What is it and how does it work? Indiana Business Review. 2011;86(1):4-8.

21. Smith VL, Eadington WR. Tourism Alternatives: Potentials and Problems in the Development of Tourism. University of Pennsylvania Press; 1992.

22. Suansri P. Community-based tourism handbook. Responsible Ecological Social Tour-REST. Mild Publishing; 2003.

23. Tosun C. Towards a typology of community participation in the tourism development process. Anatolia. 1999;10:113-134.

24. Tosun C. Limits to community participation in the tourism development process in developing countries. Tourism Management. 2000;21(6):613-633.

25. Wiwin IW. The implementation of the community-based tourism concept in cultural heritage management as a tourist attraction in Batuan Village Temple Gianyar Bali. Udayana University; 2019.

26. World Bank Group. Tanzania - Community Based Coastal Resource Management and Sustainable Livelihoods Project (English).

27. https://azerbaijan.travel/azerbaycan-haqqinda-maraqli-faktlar. Accessed 2024 Nov 5.

28.https://info.undp.org/docs/pdc/Documents/AZE/ProDoc_FA_Tourism%20Project_20210415_signed.pdf. Accessed 2024 Nov 2.

29. https://travelnews.az/2018/11/07/icma-%C9%99sasli-turizm-community-based-tourism/. Accessed 2024 Oct 27.

**Simran Shohran oglu HAJALIYEV**
Azerbaijan Tourism and Management University, Lecturer
Azerbaijan Tourism and Management University, Ph.D. Candidate
E-mail: simranhajaliyev@gmail.com
ORCID ID: 0009-0002-3154-5014

# RESOURCES AND PERSPECTIVES FOR DEVELOPING COMMUNITY-BASED TOURISM IN THE CONTEXT OF ETHNIC DIVERSITY IN AZERBAIJAN

## Abstract

Tourism and community development are closely linked, making community-based tourism (CBT) a powerful driver of socio-economic growth in local communities. CBT offers an alternative source of income while promoting sustainable development and maximizing benefits for the local population. Azerbaijan, with its rich cultural heritage and natural beauty, presents a strong foundation for the development of CBT

initiatives. As a branch of the sustainable tourism concept, I offers a revolutionary approach to tourism development. The primary goal of this approach is to transform local communities from passive participants into active stakeholders in tourism activities. CBT not only strengthens the capacity of local communities to manage tourism resources but also actively engages them in the process as a tool for community development. Additionally, CBT enables communities to generate income, diversify their economies, preserve their cultural and historical heritage, protect the natural environment, and create educational and awareness opportunities. This article aims to contribute to the development of sustainable and impactful CBT initiatives in Azerbaijan by examining current resources and proposing development directions. The research will identify key ways for communities to benefit more from tourism and offer recommendations for both local communities and stakeholders working in the tourism sector.

**Keywords:** community-based tourism, local communities, sustainable tourism, socio-economic development, Azerbaijan

**Симран Шохран оглу ГАДЖАЛИЕВ**

Азербайджанский Университет Туризма и Менеджмента, Преподаватель

Азербайджанский Университет Туризма и Менеджмента, Докторант

E-mail: simranhajaliiev@gmail.com

ORCID ID: 0009-0002-3154-5014

## РЕСУРСЫ И ПЕРСПЕКТИВЫ РАЗВИТИЯ ОБЩЕСТВЕННОГО ТУРИЗМА В КОНТЕКСТЕ ЭТНИЧЕСКОГО РАЗНООБРАЗИЯ В АЗЕРБАЙДЖАНЕ

### Резюме

Туризм и развитие местных сообществ тесно связаны между собой, что делает туризм основанный на сообществах (ТОС) мощным фактором социально-экономического роста местных сообществ. ТОС предлагает альтернативный источник дохода, способствуя при этом устойчивому развитию и максимизации выгод для местного населения. Азербайджан, с его богатым культурным наследием и природной красотой, представляет собой прочную основу для развития инициатив ТОС. Как часть концепции устойчивого туризма, ТОС предлагает революционный подход к развитию туризма. Главная цель этого подхода - превратить местные сообщества из пассивных участников в активных заинтересованных лиц в туристической деятельности. ТОС не только укрепляет потенциал местных сообществ в управлении туристическими ресурсами, но и активно вовлекает их в этот процесс в качестве инструмента развития сообщества. Кроме того, ТОС позволяет сообществам получать доход, диверсифицировать свою экономику, сохранять свое культурное и историческое наследие, защищать природную среду, а также создавать возможности для образования и просвещения. Цель данной статьи - внести вклад в развитие устойчивых и эффективных инициатив ТОС в Азербайджане, изучив существующие ресурсы и предложив направления развития. В ходе исследования будут определены основные пути получения сообществами большей выгоды от туризма и предложены рекомендации как для местных сообществ, так и для заинтересованных сторон, работающих в секторе туризма.

**Ключевые слова**: туризм основанный на сообществах , местные сообщества, устойчивый туризм, социально-экономическое развитие, Азербайджан.